# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

Bakı şəhəri № 226/9 20 dekabr 2011-ci il

Auditorlar Palatası tərəfindən Milli Strategiyanın icra vəziyyəti barədə məlumatların hər altı aydan bir Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya və Nazirlər Kabinetinə təqdim edilməsi haqqında

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2007-ci il 28 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nı (2007-2011-ci illər) rəhbər

tutaraq, Auditorlar Palatasının 2011-2013-cü illər üzrə iş planının və Palata Şurasının 2011-ci il üzrə iş planının - "Auditorlar Palatası tərəfindən Milli Strategiyanın icra vəziyyəti barədə məlumatların hər altı aydan bir Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya və Nazirlər Kabinetinə təqdim edilməsi" barədə 9.24-cü və 27-ci bəndlərinin icrası ilə əlaqədar 2011-ci ilin II yarımilinə (illik) dair hazırlanmış hesabat haqqında Auditin tənzimlənməsi, təşkili və şəffaflığın təminatı idarəsinin rəisi M.Abbasovun məruzəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. Auditin tənzimlənməsi, təşkili və şəffaflığın təminatı idarəsi (M.Abbasov) tərəfindən hazırlanmış "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın (2007-2011-ci illər) həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Auditorlar Palatasının 2011-ci il üzrə tədbirlər planının icrası" barədə 2011-ci ilin II yarımilinə (illik) dair hesabat bəyənilsin (əlavə olunur).
2. Auditin tənzimlənməsi, təşkili və şəffaflığın təminatı idarəsinin rəisi M.Abbasova tapşırılsın ki, "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın (2007-2011-ci illər) həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Auditorlar Palatasının 2011-ci il üzrə tədbirlər planının icrası" barədə 2011-ci ilin II yarımilinə (illik) dair hesabatın Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya və Nazirlər Kabinetinə göndərilməsini təmin etsin.
3. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2007-ci il 28 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"da (2007-2011-ci illər) Auditorlar Palatası ilə bağlı müəyyən edilmiş öhdəliklərin Palata tərəfindən müvəffəqiyyətlə icra olunduğu qeyd edilsin.
4. "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"dan (2007-2011-ci illər) irəli gələn vəzifələrin icrasında

bilavasitə ardıcıl olaraq iştirak etmiş əməkdaşların müsbət işi qeyd olunsun və onların mükafatlandırılması məqsədəmüvafiq hesab edilsin.

5. "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"dan (2007-2011-ci illər) irəli gələn vəzifələrin icrasına dair məlumat kütləvi informasiya vasitəsində işıqlandırılsın.

6. Maliyyə və informasiya təminatı idarəsinə (V.Rəhimov) tapşırılsın ki, bu qərarın və "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın (2007-2011-ci illər) həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Auditorlar Palatasının 2011-ci il üzrə tədbirlər planının icrası" və bütövlükdə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın (2007-2011-ci illər) icrası ilə bağlı Palata tərəfindən öhdəliklərin yerinə yetirilməsinin başa çatdırılması barədə məlumatın Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**